BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2006

# III SAM MİRZƏ ÜSYANINA DAİR

**E.İ.HÜSEYNOV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

Tarixə III Sam Mirzə üsyanı kimi düşən, 1747-ci ilin martında Ərdəbildə başlanan üsyan əhatə dairəsinə və davamlılığına görə Nadir şahın hakimiyyətinə qarşı Cənubi Azərbaycanda baş qaldıran ən böyük üsyandır. Bu üsyanın bir çox tarixçilər tərəfindən işıqlandırılmasına baxmayaraq, hətta son dövrlərdə belə nəşr olunan bir sıra tarixi ədəbiyyatda III Sam Mirzə üsyanı haqqında yanlış fıkirlər təkrar olunmaqda davam edir. Məhz bu bizi həmin üsyanın bəzi aspektlərini tədqiq etməyə sövq etmişdir.

Azərbaycan tarixində özünəməxsus yerə malik olan III Sam Mirzə üsyanı haqqında danışmazdan əvvəl birinci olaraq üsyanın tarixşünaslığına diqqət yetirməyi lazım bildik. Belə ki, bu mövzuya ilk dəfə olaraq sovet iranşünası M.S.İvanov toxunmuş və üsyan haqqında qısa da olsa məlumat vermişdi. [10, s.104] Üsyanı ilk dəfə olaraq işıqlandıran isə sovet tarixçisi A.P.Noveselsev [15, s.251-252] olmuşdur. Azərbaycanda bu problemə birinci olaraq professor F.M.Əliyev [7,s.216-220] tərəfindən diqqət yetirilmişdir. Düzdür 1961-ci ildə nəşr olunmuş üç cildli «Azərbaycan tarixi»nin I cildində Təbrizdə III Sam Mirzə üsyanının baş qaldırması [1, s.349] bildirilsə də, lakin bu üsyan haqqında daha heç nə deyilmir. Onu da qeyd edək ki, F.M.Əliyevin məlumatından sonra Azərbaycanda nəşr olunan tarixi ədəbiyyatda adətən F.M.Əliyevin fikirləri təkrar olunur. Sözügedən üsyana daha sonra rus arxiv məlumatlarına istinadən Gövhər xanım Məmmədova [13, s.54-58] tərəfindən ətraflı işıq salınmışdı. Yeri gəlmişkən qeyd edək ki, bu üsyan İran tarixində də, ətraflı tədqiq olunmamışdır. Belə ki, Nadir şah haqqında samballı əsər yazan müasir Iran tarixçisi M.H.Mimәndi Nejad [19] üsyan haqqında heç bir söz söyləmir. M.H.Qüddusi [3, s.206] isə, üsyan haqqında yalnız bir cümləylə kifayətlənir. G.N.Məmmədovanın əsərindən savayı demək olar ki, bütün tarixi ədəbiyyatda üsyanın cəmi 4 ay davam etməsi qeyd olunur. Yalnız G.N.Məmımədova dövrün rus konsullarının verdiyi məlumatlara istinadən üsyanın 1747-ci ilin oktyabrın 20-dək davam etməsini qeyd edir [13, s.58, qeydlər s.119] ki, fikrimizcə bu da həqiqətə daha uyğundur.

Çünki, üsyanın martın 21-də Ərdəbildə başlayaraq Nadirin ölümündən sonrakı dövrdə daha da genişlənib Təbrizə, daha sonra Rəştə yayılması, «III Sam»-ın öz adına pul kəsdirməsi, Azərbaycan

xanlarına onun ali hakimiyyətinin tanınması üçün fərmanlar göndərməsi, ətrafına 20 min döyüşçü cəmləyərək mərkəzi hakimiyyətə iddialı olan Əmir Aslan xanla iki dəfə üz-üzə gəlməsi və bununla yanaşı, cəmi 4 ay davam etməsi fıkri inandırıcı görünmür. Birincisi ona görə ki, üsyanın «əhalinin şiə hissəsinin çox təmtəraqla qeyd etdiyi (IV ərəb xəlifəsi Əlinin taxta çıxmasına görə – E.H.) martın 21-də Novruz bayramının birinci günündə» başlayaraq dörd ay davam etməsi və həmin 1747-ci il iyunun 18-də sona yetməsi, iyunun 19-u, [8, s.254] yəni III Sam Mirzə üsyanın yatırılmasından bir gün sonra Nadir şahın öldürülməsi üsyanın Nadir şahdan sonrakı dövrdə davam etməsi fikrini təkzib edir ki, bu da doğru deyil. Başlıcası ona görə ki, bu barədə verilən məlumatların hamısında üsyanın Nadir şahın ölümündən sonra, Əliqulu xanın şahlığı (Adil şah) dövründə yatırıldığı bildirilir. Bu haqda İranda missionerliklə məşğul olan arxiyepiskop Salvininin 1748-ci ilin avqustunda Təbrizdən Romaya göndərdiyi məktubunda deyilir: «... Təbrizin narazı əhalisi Siyamın (III Sam Mirzənin – E.H.) hakimiyyətə namizədliyini irəli sürdü. Ona qarşı Əli Adil şah Əmir Aslan xanı göndərdi. O da, çoxlu təbrizli qırıb Siyama qalib gəldi...» [14, s. 48-49].

Düzdür A.A.Bakıxanovun [6, s.151] prof. F.M.Əliyevin [7, s.218] akademik Ə.S.Sumbatzadənin [17, s.247] və bir çox başqalarının Nadir şahın ölümünü 9 may tarixinə aid etmələri bu hərəkatın dörd ay davam etməsinə inam qazandırır. Bununla belə, Nadir şahın ölümündən (9 may) sonra 18 iyun tarixinə qədər 40 günlük bir müddət ərzində III Sam Mirzənin fəaliyyət dairəsini genişləndirərək aşağıda sadalayacağımız bir çox işləri görə bilməsi şübhəli görünür. Belə ki, Nadir şahın qətl olunmasının ardınca III Sam Mirzənin Astaraya yollanması və astaralılardan dəstək aldıqdan sonra dağlarla Ərdəbilə və Təbrizə getməsi, Təbrizdə sikkə zərb etməsi, Rəşt və daha sonra İrəvan üsyançılarına kömək məqsədilə İrəvan istiqamətində yürüş təşkil etməsi fıkrimizcə 40 gün müddətinə həyata keçirilə bilməzdi. Onu da qeyd etmək istərdik ki, mənbələrin və Nadir şahdan bəhs edən tarixi ədəbiyyatın böyük əksəriyyətində Nadirin mayın 9-da deyil, 19-22 iyun tarixində qətlə yetirilməsi göstərilir. Belə ki, M.H.Qüddusi Nadir şahın ölümünü 1747-ci ilin iyunun 21-də, [3, s.216] qətl zamanı Nadirin yanında olan onun şəxsi həkimi Bazenin yazdığına istinadən M.R.Arunova və K.Z.Aşrafyan isə Nadirin qətlinin iyunun 19-da, [8, s.254] Nadir şahın katibi və şəxsi tarixçisi Mirzə Mehdi xan Astrabadi isə iyunun 20-də baş verdiyini söyləyirlər [18, s.421-422]. S.R.Kişmişev isə sui-qəsdin 22 iyun tarixində [11, s.221] olduğunu yazır. Belə məlumatları çox sitat gətirmək mümkün olsa da bu, bizim əsas diqqət yetirmək istədiyimiz mövzu olmadığından yuxarıda deyilənlərlə qane olmağı lazım bildik.

İkincisi, yalançı şahzadə üsyanının Adil şahın hakimiyyəti dövründə süquta uğradığını nəzərə alaraq sonuncunun nə vaxt hakimiyyətə gəlməsinə diqqət yetirməyi lazım bildik. Belə ki, Əliqulu xanın 1160-cı ilin cəmadiüləvvəl ayının 7-də (1747-ci ilin iyulun 7-

də) [3, s.212] Adil şah adıyla taxta çıxdığını nəzərə alsaq, onda Əliqulu xanın şah elan olunduğu tarixin də III Sam Mirzə üsyanının 4 ay davam etməsi fikrinin əleyhinə işləməsinin şahidi oluruq.

Yeri gəlmişkən qeyd edək ki, Əliqulu xanın şah seçilməsindən danışan S.R.Kişmişev yazır ki, Nadirin ölümündən sonra uzun müzakirələr nəticəsində ölkədə olmayan Əliqulu xan şah seçildi və bu xəbəri ona vermək üçün onun yanına çaparlar göndərildi. Ordunun və əyanların təkidiylə «... yeni seçilmiş şah öz tərəfdarlarıyla avqustda Isfahana gəldi» [11, s.222].

Üçüncüsü, III Sam Mirzə üsyanı haqqında əsas mənbələrdən biri sayılan İ.Lerxin verdiyi məlumatlardan açıq aydın olur ki, üsyan nəinki 4 ay hətta 5 aydan belə çox davam edib. Belə ki, İ.Lerxin verdiyi məlumatlar, «Şahzadə»nin sərdar təyin etdiyi Astara xanın qardaşının 2.000-lik qoşunla Rəştə yaxınlaşıb, 24 avqustda Rəşti tutması, burada olan ingilis tacirlərini qarət etməsi və üsyançıların, Adil şahın onlara qarşı ordu göndərməsini eşidəndən sonra isə şəhəri tərk etməsindən xəbər verir [12, s.101-102]. Əsərinin digər yerində də müəllifın dolayı yolla da olsa bu məlumatı təsdiq etməsi üsyançıların Rəşti tütarkən artıq şəhərdə olmayan (xatırladaq ki, İrana göndərilən rus səfıri Qalitsın iyulun 3-də, başda I.Lerx olmaqla səfirliyin digər üzvləri isə avqustun 10-da Rəşti tərk etmişdilər [12, s.93-95]). İ.Lerxin verdiyi məlumatın doğruluğuna şübhə oyatmır. Belə ki, o yazır: «1748-ci ilin aprelin 12-də konsul Bakunin Həştərxana gəldi. O, dedi ki, İbrahim öz qardaşı şaha qarşı Təbrizdə qiyam edib və Əmir Aslan xan da öz korpusuyla ona qoşulub, bundan sonra o, Rəştə güclü dəstə göndərdi; bu dəstə 3 ingilisi qarət etdi, onların sonuncu mallarını əllərindən aldı və bir hissəsini ucuz qiymətə tacirlərə satdı, necə ki, ötən avqustda (1747-ci ilin avqustunda - E.H.) onlara qədər Sam Mirzənin adamları etmişdilər» [12, s.106]. Maraqlı haldır ki, bu üsyan haqqında danışanda İ.Lerxdən istifadə edən bir sıra tarixçilər üsyançıların Rəşti tutduğunu qeyd etsələr belə üsyanın 4 ay davam etməsini bildirirlər.

Ən nəhayət qeyd edək ki, P.Q.Butkov üsyanın 1747-ci ilin axırlarında sona yetdiyini yazır: «...O (III Sam Mirzə – E.H) Azərbaycan general - qubernatoru Əmiraslan xan tərəfindən 1747-ci ilin sonunda öldürüldü».[9, s.248] P.Q.Butkovun dedikləriylə yanaşı tədqiqatçı G.N.Məmmədovanın İranda olan dövrün rus konsul məlumatlarından gətirdiyi faktlar III Sam Mirzə üsyanının 4 ay davam etməsi fıkrini tamamiylə alt-üst edir və sözü gedən üsyanın 7 ay davam etməsi fikrini deməyə əsas verir. Belə ki, G.N.Məmmədovanın yazdıqlarından oxuyuruq: «İyulun sonunda III Sam Mirzə Təbrizə yaxınlasdı və Təbriz hakimi səhər qapılarını bağlamağa məcbur oldu» [13, s.55]. «... 1747-ci ilin oktyabrın 20-də o (III Sam Mirzə – E.H.), Təbrizə Əmir Aslan xanın yanına gətirildi və gözləri cıxarıldı» [13, s.58].

1747-ci il martın 21-də baş qaldıran, ümumxalq narazılığından və «ədalətli hökmdar» arzusundan doğan üsyana İ.Lerxin mə-

lumatına görə 3 ay öncə Gilanda dəmirçiliklə məsğul olan «vəliəhd» Sam Mirzə başçılıq edirdi [12, s.101]. Car salnaməsində isə deyilir: «Bu zaman Ərdəbildə Sam şah adlı bir adam peyda olur. O, Qaradağda Qoca xanın yanında gizlənirdi» [4, s.45]. Yerli əhalinin şah hakimlərinə nifrətindən istifadə edən Sam Mirzə Ərdəbil əhalisinin çox hissəsini öz ətrafına çəkməyə və silahlı dəstələr yaratmağa nail oldu ki, onlar da demək olar ki, Əfşar inzibati-idarəsinin bütün nümayəndələrini qırıb onu şəhər hakimi etdilər [7, s.217].

«III Sam»ın üsyan qaldırdığı bir dövrdə artıq dağılma həddində olan Nadir şahın yaratdığı dövlətin demək olar ki, bütün ərazilərini üsyan dalğası və ümumxalq narazılığı əhatə etmisdi. Belə bir şəraitdə hakim təbəqələr arasında inamsızlığına görə hörmətini itirmis Nadir şah Əfşarın, bütün üsyanların eyni zamanda yatırılmasına nə vəsaiti, nə də canlı qüvvəsi vardı. Bu üzdən də o, əhəmiyyətinə görə dövlət ücün daha ciddi təhlükə törədən üsyanların yatırılmasını birinci dərəcəli vəzifə sayırdı ki, bu da xırda üsyanların cəzasız qalmasına səbəb olurdu. Görünür Ərdəbildə başlanan üsyan da ilk öncə məhəlli silahlı çıxışı xatırlatdığından Nadir sah ona əhəmiyyət verməmisdi.

Nadirin ölümüylə ruhlanan və birincinin qətlindən sonra ölkəni bürüyən qarışıqlıq və hakimiyyətsizlikdən (qısa müddətə də olsa) istifadə edən III Sam Mirzə öz mövqeyini möhkəmləndirmək məqsədilə daha ciddi addımlar atmağa başladı. Bu zaman, F.M.Əliyevin yazdığına görə o, daha mötəbər feodallar tərəfindən oluna biləcək hücumlardan özünü müdafiə etmək üçün öz ətrafına sadə əhali ilə yanaşı iri feodallar arasında da tərəfdarlar toplamağa çalışırdı. Bununla bağlı Əfşarların qatı düsməni olan Astara xanının yanına gedib onu inandıra bildi ki, o həqiqətən Səfəvi taxtının varisidir. Tezliklə apardığı fəal təbliğat nəticəsində Sam Mirzə Astara xanı ilə yanaşı Bakı xanını da öz tərəfinə cəkə və onlardan hərbi yardım ala bildi. Öz ətrafına 12-15 min adam cəmləyə bilən «III Sam» Astara xanını özünün baş naziri, onun qardaşını isə sərdar təyin etdi [7, s.218; 12, s.101-102].

I və II Sam Mirzə kimi, Səfəvi taxt-tacının «bərpası» üçün çalışan və əsilnəcabətsiz bir adam olan «III Sam»ın da özünü Səfəvi şahzadəsi və ya vəliəhd adlandırması Nadir şahın hakimiyyəti dövründə ağır sosial, iqtisadi vəziyyətdə yaşamağa məcbur olan xalq kütlələrində Səfəvilər dövlətinin xoş çağları haqqında həsrət hissləri oyatmaq və bununla da özünə tərəfdarlar toplamaq istəyindən irəli gəlirdi. Yeri gəlmişkən qeyd edək ki, İ.Lerxin [12, s.101-102] və P.Q.Butkovun [9, s.248] yazdıqlarına görə III Sam Mirzə üsyan qaldırana qədər dəmirçiliklə məsğul olmuşdur. Dövrün hadisələrindən ətraflı məlumatı olan Əbül Həsən Qolestane [15, s.251] isə «III Sam»ın dəmirçiliklə məsğul olduğunu yazmasa da onun əsilnəcabətsiz olduğunu vurğulayır.

Üsyandan danışarkən heç bir tarix göstərməyən, istifadə etdiyi mənbələrin və ya tədqiqatların adlarını qeyd etməyən N.Ç.Mustafayeva «Cənubi Azərbaycan xanlıqları» adlı əsərində yazır ki,

«Astara hökmdarı ilə ittifaq bağlayandan sonra Sam Mirzə, Xəzər dənizinin cənubunda zəngin ticarət mərkəzi olan Rəştə getdi... Yalançı Sam Mirzənin Rəştə getdiyini bilən Adil şah oraya qoşun göndərdi. Nizami ordu ilə vuruşmaq istəməyən Sam Mirzə öz qoşunlarını əvvəlcə Ərdəbilə çəkdi, Təbrizdə Səfəvilərin tərəfdarlarının çox olduğunu biləndən sonra oraya getdi. Təbrizə gələn üsyançılar Əfşarların buradakı nümayənədələrini qırdılar və Sam Mirzəni şəhər hökmdarı elan etdilər...» [5, s.39]

Fikrimizcə «Cənubi Azərbaycan xanlıqları» əsərinin müəllifinin belə qeyd etməsi bəzi dəqiqliklər tələb edir. İlk öncə bildirməliyik ki, Rəştə III Sam Mirzə deyil, yuxarıda göstərdiyimiz kimi Astara xanının qardaşı hücum edib. «Şahzadənin» əvvəl Rəşti və Rəştdən geri cəkildikdən sonra Təbrizi tutması isə tarixi ardıcıllıq baxımından düz deyil. Belə ki, İ.Lerxə görə Astara xanının dəstəyini alandan sonra «III Sam» «...oradan (Astaradan – E.H.) dağlarla Ərdəbilə və Təbrizə getdi... O, Ərdəbildə (müəllif səhvə yol verir Təbrizdə olmalıdır. Bu haqda aşağıda – E.H.) sikkə zərb etməyi əmr etdi və Rəştə çapar göndərdi ki, tabeçilik göstərsinlər: sonuncu bu sikkəni payladı, ondan bir nüsxəni mən də (I.Lerx – E.H) aldım» [12, s.101]. Buradan görmək olur ki, əvvəlcə Ərdəbil və Təbriz üsyançılar tərəfindən ələ keçirilmiş və sonuncu şəhərdə sikkə zərb olunaraq İ.Lerxin Rəşti tərk etməyinə - 1747-ci ilin avqustun 10-na qədər Rəştə göndərilmişdi ki, bu da Təbrizin Rəştdən əvvəl tutulduğunu gostərir. O ki, qaldı İ.Lerxin dediyi kimi sikkənin Ərdəbildə zərb olunmasına, qeyd etməliyik ki, sikkələr üzərində adətən hansı ildə və hansı şəhərdə zərb olunması yazılır. Belə ki, Azərbaycanın tanınmış numizmatı Ə.M.Rəcəbli tərəfindən oxunan III Sam Mirzəyə məxsus olan sikkələr üzərində «Təbriz 1160» [16, s.178] qeydləri edilmişdi ki, bu da sikkələrin Ərdəbildə deyil, Təbrizdə zərb olunmasına maddi sübutdur.

1747-ci il iyul ayının sonunda «Şahzadə» Təbrizə yaxınlaşdı. Bunu bilən Təbriz hakimi şəhər qapılarını üsyançıların üzünə bağladı. Buna baxmayaraq şəhərlilərin yardımıyla «III Sam» tezliklə Təbrizi ələ keçirtdi və ilk növbədə kömək üçün İrəvan yaxınlığında olan Əmir Aslan xana müraciət edən şəhər hakimi və 8 yüzbaşının burun və qulaqlarını kəsməyi əmr etdi. Eyni zamanda onların əmlakı müsadirə edilib evləri dağıdıldı. Bununla yanaşı xalqın maddi vəziyyətini düzəltmək və öz nüfuzunu qaldırmaq üçün Təbriz hakiminin tərəfini saxlamış tacirlər qarətə və cərimələnməyə düçar oldular [13, s.55-56].

Digər yalançılardan fərqli olaraq III Sam Mirzə öz hərəkətlərinə və Səfəvi taxtına olan iddialarına qanunilik vermək məqsədilə Təbrizdə sikkə zərb etdirib və onu fərmanlarla Səfəvi taxtının tərəfdarlarının olduğu güman edilən digər şəhərlərə göndərdisə də, bu fərmanlara, özlərini müstəqil elan edən Azərbaycan xanları cavab vermədilər. Bu da faktiki olaraq onun ali hakimliyinin tanınmaması demək idi [7, s.219].

Zərb etdiyi pullarla Rəştə göndərdiyi qasidin qovulmasına

görə «III Sam» zəngin ticarət səhəri olan Rəşti ələ keçirtməkdən ötrü Astara xanının qardaşının komandanlığı altında 2000-lik dəstə göndərdi. Şəhər rəhbərlərinin üsyançıların qarşısını almaq cəhdi uğursuz oldu. Avqustun 24-də şəhəri ələ keçirən üsyançılar pul əldə etmək məqsədilə ingilis tacirlərini qarət edib onların mallarını ucuz qiymətə digər tacirlərə satdılar. Öz konsulluqlarının həyətində gizlənən rus tacirləri isə qarətdən yaxa qurtara bildilər. Adil şahın onlara qarşı ordu göndərməsini eşidən üsyançılar tezliklə şəhəri tərk etdilər [12, s.101-102].

A.P.Noveseltsevə görə Sam Mirzə Şimala doğru hərəkət edib İrəvan qalasını mühasirə etdi. Sam Mirzə öz maraqları naminə Azərbaycan və gürcü feodalları arasında olan düşmənçilikdən istifadə etməyə çalışsa da bu ona nəsib olmadı [15, s.251].

Belə ki, 1999-cu ildə nəşr olunmuş 7 cildli Azərbaycan tarixinin III cildində yazılır ki, Əmiraslan xanla mübarizədə məğlubiyyətə uğrayan «Sam Mirzə Qarabağ, Gəncə və Şamaxı xanları ilə görüşərək özünün rəhbərliyi altında onlara ittifaq yaratmağı təklif etmək qərarına gəldi. Sam Mirzəyə yardım göstərmək əslində öz hakimiyyətini təhlükə altında qoymaq demək idi. Çünki yalançı şahzadə İran Səfəvilər dövlətini bərpa etmək şüarı altında fəaliyyət göstərirdi. Bu dövlətə qarşı uzun müddət mübarizə aparan xanlar Sam Mirzənin yaxınlaşması xəbərini eşitdikdə öz qüvvələrini birləşdirib onu məğlub etdilər və Arazın o tərəfinə qovdular) [2, s.388-389]. Buradan belə anlaşılır ki, Sam Mirzə Azərbaycan xanları tərəfindən məğlub edilib Arazın o tayına qovulmuşdu ki, bu da həqiqətə uyğun deyil. Qeyd edək ki, «Cənubi Azərbaycan xanlıqları» əsərində də yuxarıda verilən məlumatlara oxşar fikirlər verilir [5, s. 40].

Fikrimizcə, bütün bunların cavabını F.M.Əliyevin əsərində axtarmaq daha düzgün olardı. Belə ki, A.P.Noveseltsevə istinad edən F.M.Əliyev yazır: «Müttəfiqlərin köməyinə ehtiyac duyan Sam Mirzə bir-biriylə düşmənçilik edən Qarabağ, Gəncə və Şamaxı xanlarıyla görüşməyi qərara aldı və onlara öz rəhbərliyi altında ittifaq təklif etdi. Amma xanlar belə bir ittifaqa getmədilər... Belə şəraitdə feodallar ziddiyyətləri unudub və Sam Mirzəyə qarşı öz qüvvələrini birləsdirdilər və onu məğlub edib Arazın o üzünə qovdular» [7, s.219]. A.P.Noveseltsevdə isə bu barədə oxuyuruq: «Sam Mirzə öz maraqları naminə Azərbaycan xanlarının Gürcüstanla düşmənçiliyindən istifadə etməyə cəhd etdi, ancaq bu ona nəsib olmadı. Xalq üsyanı qarşısında feodallar ziddiyyətləri unudub və öz qüvvələrini birləşdirdilər. Nadir şahın Gürcüstandakı keçmis hakimi Fətəli xan Qacar....üsyanla haqq-hesab cəkməyi öz üzərinə götürdü. O üsyançıları məğlub edib Təbrizə doğru sıxışdırdı...» [15, s.251]. Buradan acıq-aydın görünür ki, Sam Mirzə İrəvan yaxınlığında Azərbaycan xanları tərəfındən deyil Əmiraslan xanla «isti» münasibətdə olan Fətəli xan Qacar tərəfından qovulmuşdu.

Belə bir şəraitdə İrəvan yaxınlığında düşərgə salan və bu şəhəri özünə tabe etməyə çalışan Əmir Aslan xan Sam Mirzənin

Təbrizə daxil olmasını eşidib, ona şəhərdə möhkəmlənmək imkanı verməməkdən ötrü, yalançı şaha onun şahlığını tanımadığını bildirən məktub göndərərək tezliklə yürüşə çıxdı. Məktubu alan «III Sam» Əmir Aslan xana qarşı 20 minlik ordu çıxartdı və Mərənd yaxınlığında məğlubiyyətə uğradı [13, s.57]. Rus konsulu Kopıtovskinin sentyabrın 27-də verdiyi məlumatlara görə məğlubiyyətdən sonra Astara xanı Astaraya qaçıb, Adil şahın qardaşı İbrahim Mirzədən bağışlanmasını xahiş edib və bütün bunların («III Sam»a qoşulmağı) Adil şaha deyil Nadir şaha qarşı etdiyini bildirdi [13, s.54-55].

Döyüşdə 15 min nəfər itirən Sam Mirzə Qarabağa qaçdı. Burada 500 nəfərə yaxın adam yığıb kömək almaq ümidiylə əvvəllər dəstək qazandığı Ərdəbilə yollandı. Ancaq Samı şəhərə buraxmayan Əmir Aslan xan sərkərdəsi Kazım xanı ona qarşı göndərdi. Məğlub edilən «şahzadə» 1747-ci il oktyabrın 20-də tutulub Təbrizə, Əmir Aslan xanın hüzuruna gətirildi və gözlərindən məhrum edildi. Bundan sonra təkcə Təbrizdə 30000-ə yaxın III Sam Mirzə tərəfdarı cəzalandırıldı [13,s.56-58] ki, bu da üsyanın necə böyük miqyas almasından xəbər verirdi.

Beləliklə, tarixi mənbələrin dərindən araşdırılması «III Sam» üsyanının bəzi məqamlarını yeni qaydada işıqlandırmağa və tarixi ədəbiyyatda yol verilmis bəzi yanlışlıqları düzəltməyə imkan verir. Belə ki, yuxarıda verilən məlumatlardan aydın olur ki, III Sam Mirzə hərəkatı daha uzunömürlü olaraq 1747-ci ilin martın 21-dən oktyabrın 20-sinə qədər 7 aylıq bir dövrü əhatə etmis, Rəşt şəhərinə isə «III Sam» deyil, onun sərkərdəsi hücum etmişdir. Həmçinin tarixi ədəbiyyatın əksəriyyətində deyildiyinin əksi olaraq üsyançılar, əvvəl Təbrizi, daha sonra isə Rəşti tutmuş və Sam Mirzə Arazın o üzünə Azərbaycan xanları tərəfindən deyil, Gürcüstan hakimi Fətəli xan Qacar tərəfindən qovulmuşdu.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. 3 cilddə. I cild, Bakı, Azərb. SSR EA, 1961.
2. Azərbaycan tarixi. 7 cilddə. III cild, Bakı, Azərb. SSR EA, 1999.
3. Məhəmməd Hüseyn Qüddusi. Nadir şah. Farscadan tərcümə edən və ön sözün müəllifi M.Ə.Müqəddis. Bakı, Gənclik, 1999.
4. Molla Məhəmməd əl–Cari. Car salnaməsi. Bakı, Səda,1997.
5. Mustafayeva N.Ç. Cənubi Azərbaycan xanlıqları. Bakı, Azərnəşr, 1995.
6. Аббаскули Ага Бакиханов. Гюлистан-и Ирам. Ред. ком. при. и указатели академика З.М.Бунятова. Баку, Элм, 1991.
7. Алиев Ф.М. Антииранские выступления и борьба против Турецкой оккупации в Азербайджане в первой половине XVIII века. Баку, Элм, 1975.
8. Арунова М.Р. и Ашрафян К.З. Государство Надир шаха Афшара. Москва, Наука,1958.
9. Бутков П.Г. Материалы для новой истории Кавказа. I том. СПб, 1869.
10. Иванов М.С. Очерки истории Ирана. Москва, Госполитиздать, 1952.
11. Кишмишев С.Р. Походы Надир шаха в Герат, Кандагар, Индию и события в Персии после его смерти. Тифлис,1889.
12. Лерх И.Я. Сведения о втором путешествии в Персию, совершенном в 1745-

1747 гг. Перевод Абезгауза. АМЕА – нын елми архиви. Инв. 490.
13. Мамедова Г.Н. Русские консулы об Азербайджане (20-60 – е годы XVIII в.). Баку. Элм, 1989.
14. Новая история Ирана (хрестоматия). Москва, Наука, 1988.
15. Новосельцев А.П. Из истории классовой борьбы в Азербайджане и восточной Армении в XVII – XVIII вв. АН ССР Исторические записки, 1960. №67.
16. Раджабли А.М. Монетное дело в Сефевидском Государстве XVIII в. Кандидатская диссертация. Баку, 1962.
17. Сумбатзаде А.С. Азербайджанцы: этногенез и формирование народа. Баку, Элм, 1990.
18. Mirza Mohəmməd Mehdi Esterabadi. Tarix – e Cəhanqoşa – yı Naderi. Ba moğəddeme-ye Əbdoləli Ədib Bəromənd. Tehran, Soruş və Neqar, 1370 (miladi 1991).
19. Məhəmməd Hoseyn Miməndi Nejad. Zendegi-ye por macəra-ye Nader şah. Tehran, Taban, 1334 (miladi 1955).

## О ВОССТАНИИ САМ МИРЗЫ III

**Э.И.ГУСЕЙНОВ**

### РЕЗЮМЕ

Статья посвящена восстанию Сам Мирзы III, которое является самым крупным восстанием в Южном Азербайджане и продолжавшаяся с марта - до октября 1747 года.

В статье исправлены некоторые неточности, которые допущены в исторических произведениях и были освящены некоторые, до сих пор не изученные, моменты. В статье автор пришел к выводу, что восстание Сам Мирзы III, вопреки до сих пор бытующему в исторической литературе мнению, продолжался не четыре месяца, а семь месяцев, и в город Решт совершил нападения не «Сам III» а его полководец. Повстанцы сначала захватили Тебриз, а потом Решт. Сам Мирза III изгнан по ту строну Аракса не со стороны азербайджанских ханов, а правителем Грузии Фатали ханом.

## ABOUT THE REBEL BY SAM MIRZA III

**E.I.HUSEYNOV**

### SUMMARY

This article devoted to the Sam Mirza Ill's revolt which was the greatet revolt in Southern Azerbaijan and continuated from march till october 1747.

In the article investigated some inexact information which we found in some historical literature and also were lighted by some investigated facts.

The author of the article states that Sam Mirza III s revolt continuated seven month despite of famous idea in historical literature that this revolt contued only four month. At the same tine author states that Resht wos attacked not by Sam Mirza but by his commander, the revolter's ocupated Tebriz, and only then Resht. Sam Mirza were exiled to another side of Araz. not by Azerbaijan khans, but by the ruler of Georgia Fatali khan.